## Kitabxanalar

Naxçıvan Muxtar Respublikasında mədəni maarif müəssisələri arasında kitabxanalar xüsusi əhəmiyyətə malikdir və dövlət tərəfindən daim diqqət mərkəzində saxlanılır.

Naxçıvan Muxtar Respublikasında cəmi 235 kitabxana - M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası, A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası, Naxçıvan Dövlət Universitetinin Elektron Kitabxanası, Naxçıvan Kitab Evi, şəhər və rayonlarda 8 mərkəzləşmiş kitabxana sistemi və onların tərkibində 224 filial kitabxanalar fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublika Kitabxanasında, Naxçıvan Muxtar Respublikası Ali Məclisin Naxçıvanşünaslıq Mərkəzində, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində və Naxçıvan Dövlət Universitetində elektron kitabxanalar, eləcə də Naxçıvan Regional İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana xidməti yaradılmışdır.

## Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası




Azərbaycanın ayrı-ayrı bölgələrində olduğu kimi, Naxçıvanda da uzun tarixi dövr ərzində ictimai-kütləvi kitabxana və qiraətxanalar formalaşmışdır. 1922-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən Naxçıvan Şəhər Kitabxanası təsis edilmiş, 1930-cu ildə həmin kitabxananın bazasında Naxçıvan Muxtar Respublika Kitabxanası yaradılmışdır. Kitaba olan marağı artırmaq məqsədilə 1933-cü ildə respublika kitabxanasının yanında qiraət salonu təşkil olunmuş, kitabxananın təşkil etdiyi səyyari kitabxana Naxçıvan şəhəri ilə yanaşı, ətraf kəndləri də əhatə etmişdir. 1953-cü ildə Naxçıvan Muxtar Respublika Kitabxanasına Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisi, böyük ədib Məmməd Səid Ordubadinin adı verilmişdir. M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası 2007-ci ildə əsaslı təmir olunmuş, modernləşmiş kitabxana internetə qoşulmuş, 20 kompüter dəsti ilə təmin edilmişdir. Fondunda 300000 nüsxə çap məhsulu olan kitabxananın 26000-dən çox oxucusu var. 50 nəfərlik böyük oxu zalı, 35 nəfərlik dövrü mətbuat zalı, 10 nəfərlik komputer internet zalı fəaliyyət göstərir. Kitabxanada Azərbaycan, rus, türk, ingilis, alman, fransız, fars və sair dillərdə ədəbiyyat nümunələri vardır.

Son illər muxtar respublikada gedən mədəni yüksəliş kitabxanalara da təsir etmiş, muxtar respublikada fəaliyyət göstərən kitabxanalar, o cümlədən Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası da dövlət qayğısı ilə əhatə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Məmməd

Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında” 19 aprel 2012-ci il tarixdə Sərəncam imzalamışdır. Həmin Sərəncamla təsdiq edilən “Tədbirlər Planı”nın 3-cü bəndinə uyğun olaraq Elektron Kitabxana yaradılmışdır.

Ünvan: Naxçıvan şəhəri, Atatürk küçəsi

Tel: (+99436) 545-03-50 ; 545-03-49

İnternet səhifəsi: e-kitab.nakhchivan.az

## Naxçıvan Dövlət Universitetinin Elektron Kitabxanası

2004-cü ildə Naxçıvan Dövlət Universiteti üçün müasir tələblərə cavab verən Elektron kitabxana tikilib istifadəyə verilmişdir. Kitabxananın fondunda 160 mindən artıq kitab var. Kitabxananın müasir tipli 4 oxu zalı, internet mərkəzi, sərgi bölməsi, dövri mətbuat fondu, cildxanası və s. mövcuddur.

## Adil Babayev adına Naxçıvan Muxtar Respublikası Uşaq Kitabxanası



Naxçıvan şəhər Uşaq Kitabxanası əsasında 1960-cı ildə yaradılmışdır. Fondunda 175 mindən artıq çap vahidi vardır. Kitabxanada iki oxu zalı, müxtəlif profilli 3 dərnək fəaliyyət göstərir. Kitabxananın 12000-dən artıq oxucusu var. Kitabxana muxtar respublikanın məktəb kitabxanaları ilə əlaqə saxlayır, onlara əməli metodik köməklik göstərir.

Ünvan: Naxçıvan şəhəri, Babək məhəlləsi (3-cü mikrorayon)

Tel: (+99436) 545-48-03 ; 545-43-38

## Məhəmmədağa Şahtaxtlı adına Naxçıvan Şəhər Kitab Evi



2005-ci ildə istifadəyə verilmiş Kitab Evi bədii, elmi, siyasi ədəbiyyatların, məktəb ləvazimatlarının və məktəbli formalarının kompleks satışı üzrə formalaşan ilk ticarət mərkəzi olmaqla bərabər burada eyni zamanda, məktəbli və yeniyetmələrin mənəvi-vətənpərvərlik tərbiyəsi ilə əlaqədar tədbirlər, oxucu konfransları, yaradıcı ziyalılarla görüşlər, yeni kitabların ictimai müzakirəsi keçirilir.